**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının**
**elm və təhsil nazirinin**
3-29/3-2-548F/2025/1 **nömrəli** 08.09 **2025-ci il tarixli**
**əmri ilə təsdiq edilmişdir.**

ƏSLİ İLƏ DÜZDÜR
AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

**MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ**

**TƏHSİL PROQRAMI**

**İxtisasın şifri və adı: 7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)**

**BAKI - 2025**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN UNİVERSİTETİ**

*Azərbaycan Universiteti Elmi şurasının*
*12.09.2025-ci il tarixli,*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

______________

*Rektor S.N. Əliyeva*

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

**İxtisasın şifri və adı: 7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)**
**İxtisaslaşma: Marketinq**

**BAKI - 2025**

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ TƏHSİL PROQRAMININ ÇƏRÇİVƏ SƏNƏDİ

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)** ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrilə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

**2.1.1.** peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;

**2.1.2.** müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;

**2.1.3.** fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;

**2.1.4.** fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;

**2.1.5.** fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;

**2.1.6.** fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;

**2.1.7.** müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;

**2.1.8.** istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;

**2.1.9.** davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

2.2. Təhsil proqramının sonunda **7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA) ixtisasının *ixtisaslaşmaları üzrə*** məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

**2.2.5. Marketinq (MBA) ixtisaslaşması üzrə**

- təşkilatın məqsədlərinə uyğun marketinq strategiyası hazırlamaq və həyata keçirmək;
- marketinq araşdırmaları aparmaqla bazar imkanlarını qiymətləndirmək və qərarvermə prosesində istifadə edə bilmək;
- bazarı seqmentləşdirməklə hədəf auditoriyalarına uyğun marketinq strategiyaları tətbiq edə bilmək;
- istehlakçı davranışını modelləşdirmək və bu məlumatlar əsasında uyğun marketinq qərarları verə bilmək;
- əmtəə siyasəti formalaşdırmaqla məhsul portfelini idarə etmək;
- bazar təhlilinə əsaslanaraq qiymət modellərini müəyyən etmək və qiymət strategiyası tətbiq edə bilmək;
- paylama (distribusiya) kanallarını satış strategiyaları ilə inteqrasiya edə bilmək;
- marketinq kommunikasiyalarını (reklam, PR, sosial media və s.) koordinasiya etmək və hədəf auditoriyaya uyğun şəkildə tətbiq edə bilmək;
- istehlakçılarla uzunmüddətli münasibətlər qurmaq və korporativ sosial məsuliyyət, davamlılıq prinsiplərinə riayət edə bilmək;

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmiixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Beynəlxalq biznes** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Biznes analitikası** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| İnsan resurslarının idarə olunması** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |

| | | | |
|---|---|---|---|
| Layihələrin idarə edilməsi** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Marketinq (MBA)** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Ümumi idarəetmə** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Risklərin idarə edilməsi** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Səhiyyənin idarə edilməsi** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Maliyyə (MBA)** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Logistika və təchizat zəncirinin idarə edilməsi** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Sahibkarlıq** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| İnformasiya texnologiyalarının idarə edilməsi** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Əməliyyatların idarə edilməsi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Mühasibat (MBA)** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Blokçeyn texnologiyalarının idarə edilməsi** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| İdmanın idarə edilməsi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Rəqəmsal biznes* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Rəqəmsal marketinq* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Turizm və otelçiliyin idarə edilməsi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Biznesdə süni intellekt** | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |
| Aqrobiznes* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Daşınmaz əmlakın idarə edilməsi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Ətraf mühitin idarə edilməsi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Mədəniyyət sahələrinin idarə edilməsi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |

3.2. Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1,5 il) və ya 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti | |
|---|---|---|---|
| 1 | **Tədqiqat metodları**[1]<br>Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur. | 0 | 6 |
| 2 | **Akademik yazı və etika**<br>Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir. | 6 | 6 |
| 3 | **Layihələrin idarə olunması**[2]<br>Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələlər ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, “Məhsul sahibi” və “Scrum Master”in vəzifələri və s. mövzular əhatə olunmalıdır. | 6 | 0 |
| 4 | **Tədqiqat analitikası**[1]<br>Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq (“Excel”, “SPSS”, “Stata”, “R”, “MAXQDA”, “Matlab”, “Python” və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur. | 0 | 6 |

[1] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.
[2] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanmayan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

| | | | |
|---|---|---|---|
| 5 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**[3] ixtisaslaşmadan asılı olaraq buraya daxil edilən fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında öz əksini tapır. | | |
| | **Liderlik və təşkilati davranış** Fənn təşkilatlarda liderlik və təşkilati davranışın əsas prinsiplərini, fərdi və qrup davranışına təsir edən psixoloji və sosial amilləri, liderlik üslublarının və motivasiya mexanizmlərinin idarəetmə prosesində rolunu öyrədir. Kurs çərçivəsində komanda işinin təşkili, münaqişələrin idarə olunması, qərarvermə və təşkilati mədəniyyətin formalaşdırılması məsələləri təhlil olunur və tələbələrdə effektiv liderlik və komanda idarəetməsi üzrə praktiki bacarıqlar inkişaf etdirilir. | 6 | 6 |
| | **Biznes statistikası** Fənn biznes və iqtisadi fəaliyyət sahələrində istifadə olunan statistik məlumatların toplanması, emalı və təhlili üsullarını, təsviri statistika, hipotezaların yoxlanılması, korrelyasiya və regresiya analizinin tətbiqi imkanlarını öyrədir. Kurs çərçivəsində müxtəlif statistik proqram vasitələri ilə məlumatların işlənməsi, iqtisadi göstəricilər arasındakı əlaqələrin müəyyənləşdirilməsi və əldə edilən nəticələr əsasında idarəetmə qərarlarının qəbuluna analitik dəstək verilməsi üzrə praktik bacarıqlar formalaşdırılır. | 6 | 6 |
| | **Menecment iqtisadiyyatı** Fənn mikro və makroiqtisadi prinsiplərin idarəetmə qərarlarının qəbuluna təsir mexanizmlərini, bazar tarazlığı, tələb və təklif münasibətləri, xərclər, gəlir və mənfəət göstəriciləri əsasında optimallaşdırma yanaşmalarını öyrədir. Kurs çərçivəsində qiymətqoyma, istehsal və resurs bölgüsü qərarlarının iqtisadi modellərlə əsaslandırılması, elastiklik və marjinal analiz alətlərindən istifadə, həmçinin oyun nəzəriyyəsinin idarəetmə qərarlarında tətbiqi məsələləri təhlil olunur və tələbələrdə səmərəli və dayanıqlı iqtisadi qərarvermə bacarıqları formalaşdırılır. | 6 | 6 |
| | **Maliyyə uçotu (F3)** Fənn maliyyə uçotunun əsas prinsiplərini, müəssisələrdə təsərrüfat əməliyyatlarının uçota alınması qaydalarını və maliyyə hesabatlarının hazırlanması mexanizmlərini öyrədir. Kurs çərçivəsində aktiv, passiv və kapital hesablarının uçotu, maliyyə nəticələrinin təhlili, Beynəlxalq Maliyyə Hesabatı Standartlarının tətbiqi və uçot məlumatları əsasında idarəetmə qərarlarının maliyyə cəhətdən əsaslandırılması məsələləri araşdırılır və tələbələrdə maliyyə məlumatlarının düzgün aparılması və təhlili üzrə praktiki bacarıqlar formalaşdırılır. | 6 | 6 |

[3] Burada “fənlər” dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də “Capstone” layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir və müvafiq ixtisaslaşma üzrə qəbul olan təhsilalan üçün məcburi xarakter daşıyır. Bu bölmədə minimum 4 fənn olmalıdır.

| | | | |
|---|---|---|---|
| | **İstehlakçıların davranışı və modelləşdirilməsi**<br>Fənn istehlakçı davranışının formalaşmasına təsir edən psixoloji, sosial və mədəni amilləri, istehlakçıların qərarvermə mexanizmlərini və bazar davranış modellərinin tətbiq imkanlarını öyrədir. Kurs çərçivəsində bazar seqmentasiyası, hədəf bazarın seçilməsi, rəqəmsal mühitdə istehlakçı davranışında baş verən dəyişikliklər, empirik məlumatlar əsasında davranışın modelləşdirilməsi və marketinq strategiyalarının istehlakçı qərarlarına təsiri təhlil olunur, tələbələrdə bazar davranışının analizi və proqnozlaşdırılması üzrə praktik bacarıqlar formalaşdırılır. | 6 | 6 |
| | **Marketinq strategiyası**<br>Fənn marketinq strategiyasının formalaşdırılması prinsiplərini, bazar və rəqabət mühitinin təhlili əsasında strateji qərarların qəbul edilməsi üsullarını və müəssisələrin uzunmüddətli bazar mövqeyinin gücləndirilməsi yollarını öyrədir. Kurs çərçivəsində rəqəmsal və beynəlxalq marketinq strategiyalarının müqayisəli analizi, SWOT, BCG və Ansoff kimi strateji alətlərin tətbiqi, müştəri yönümlü yanaşmaların və bazar meyllərinə uyğun dayanıqlı marketinq strategiyalarının hazırlanması məsələləri araşdırılır və tələbələrdə strateji marketinq planlaşdırılması üzrə praktik bacarıqlar formalaşdırılır. | 6 | 6 |
| | **Marketinq tədqiqatları**<br>Fənn bazar və istehlakçı davranışının öyrənilməsi məqsədilə marketinq tədqiqatlarının planlaşdırılması, məlumatların toplanması və emalı üsullarını, sorğu, müşahidə və eksperiment kimi əsas tədqiqat metodlarının tətbiqini öyrədir. Kurs çərçivəsində əldə olunan məlumatların analizi, nəticələrin idarəetmə və marketinq qərarlarında istifadəsi, tədqiqatlarda etibarlılıq və obyektivlik prinsiplərinin qorunması, həmçinin analitik nəticələr əsasında bazar proqnozlarının və strategiyaların hazırlanması üzrə praktiki bacarıqlar formalaşdırılır. | 6 | 6 |
| | **Davranış iqtisadiyyatı**<br>Fənn iqtisadi qərarvermə prosesində psixoloji və davranış amillərinin rolunu, insanların rasional olmayan seçim meyllərinin iqtisadi nəticələrini və iqtisadi modellərdə davranış faktorlarının nəzərə alınması üsullarını öyrədir. Kurs çərçivəsində heuristikalar, itki qorxusu, çərçivələmə effekti kimi davranış mexanizmləri, davranış iqtisadiyyatı nəzəriyyələrinin müqayisəsi, istehlakçı və investor davranışlarının empirik təhlili və iqtisadi siyasət və biznes qərarlarında davranış yanaşmalarının tətbiqi məsələləri araşdırılır və tələbələrdə iqtisadi qərarların daha real davranış modelləri əsasında qiymətləndirilməsi bacarıqları formalaşdırılır. | 6 | 6 |
| | **Məhsul portfelinin idarə edilməsi**<br>Fənn müəssisələrdə məhsul portfelinin formalaşdırılması və idarə olunması prinsiplərini, məhsulların həyat dövrü və bazar mövqeyi əsasında portfel analizinin aparılması üsullarını və strateji məhsul qərarlarının qəbul edilməsini öyrədir. Kurs çərçivəsində BCG və GE kimi portfel analiz alətlərinin tətbiqi, yeni məhsul inkişafı və innovasiya proseslərinin idarə olunması, resursların məhsullar üzrə səmərəli bölgüsü və portfelin gəlirlilik, bazar payı və risk göstəriciləri əsasında | 6 | 6 |

| | | | |
|---|---|---|---|
| | optimallaşdırılması məsələləri təhlil olunur və tələbələrdə məhsul strategiyalarının hazırlanması üzrə praktiki bacarıqlar formalaşdırılır. | | |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər**[4] Müvafiq fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada ixtisaslaşmadan asılı olaraq müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında əksini tapır. | 18 | 18 |
| **Təcrübə** | | | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 | 6 |
| ... | **Elmi tədqiqat təcrübəsi**[5] | 0 | 6 |
| **Dissertasiya işi** | | | |
| ... | **Magistrlik dissertasiyası**[6] | 0 | 18 |
| **CƏMİ** | | **90** | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

[4] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Sözügedən fənlər müəyyən edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.

[5] Bu təcrübə növü magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[6] Magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslar (ixtisaslaşmalar) üçün nəzərdə tutulmuşdur. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- professor-müəllim və tədris köməkçi heyəti;
- zəruri avadanlıqla təchiz olunmuş auditoriya;
- kompüter otağı və internetdən istifadə imkanları; elmi-tədris laboratoriyası;
- təcrübələrin keçirilməsi üçün baza müəssisələri;  elmi kitabxana;  akademik və peşəkar elektron məlumat bazalarına çıxış imkanı.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur, elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər;

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. **7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)** proqramı üzrə məzunlar aşağıdakı sahələrdə və peşələrdə işləyə biləcəklər:

**Marketinq (MBA) ixtisaslaşması üzrə**

- Strateji marketinq direktoru;
- Kommunikasiya və brend eksperti;
- Marketinq analitiki;
- SEO/SEM rəhbəri;
- Sosial media eksperti;
- Müştəri münasibətləri üzrə məsləhətçi;
- Bazar araşdırmaları üzrə təhlilçi;
- Biznes məktəblərində ixtisası/ixtisaslaşması üzrə müəllim və s.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir;

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər;

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

**7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)** ixtisasının ***ixtisaslaşmaları*** üzrə ***proqramın təlim nəticələri*** aşağıdakılardır:

| Marketinq (MBA) ixtisaslaşması üzrə proqramın təlim nəticələri (PTN) |
|---|
| 1. Marketinq strategiyası hazırlayır |
| 2. Qərarvermə prosesində iştirak edir |
| 3. Bazar seqmentlərinə uyğun marketinq strategiyası tərtib edir |
| 4. İstehlakçı davranışını modelləşdirir |
| 5. Məhsul portfelini idarə edir |
| 6. Qiymət strategiyası müəyyən edir |
| 7. Distribusiya kanallarını satış strategiyaları ilə inteqrasiya edir |
| 8. Marketinq kommunikasiyalarını koordinasiya edir |
| 9. Korporativ sosial məsuliyyət və davamlılıq prinsiplərinə riayət olunmasına nəzarət edir |

| Tədqiqat metodları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| FTN 2 Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| FTN 3 Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| FTN 4 Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizuallaşiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| FTN 5 Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| FTN 6 Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz |

| |
|---|
| edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| **“Layihələrin idarə olunması” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2 Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirməklə ünsiyyət və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3 Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4 Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5 “Agile” (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək “Məhsul sahibi” və “Scrum Master” rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6 Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihə fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| **Tədqiqat analitikası fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| FTN 2 Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| FTN 3 Fərqli proqram təminatlarında (“Excel”, “Eviews”, “SPSS”, “Python”, “R”, “Matlab” və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| FTN 4 Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| FTN 5 Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| FTN 6 Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |

| **“Elmi-pedaqoji təcrübə” üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi və tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və |

| |
|---|
| tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| FTN 5 Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

| **“Elmi-tədqiqat təcrübəsi” üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd və vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| FTN 2 Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhlil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| FTN 3 Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| FTN 4 Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| FTN 5 Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| FTN 6 Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |

| **“Magistrlik dissertasiyası” üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| FTN 2 İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| FTN 3 Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| FTN 4 Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktiki tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| FTN 5 Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| FTN 6 Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

| Liderlik və təşkilati davranış fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Liderlik nəzəriyyələrini və onların təşkilatdakı rolu barədə biliklər qazanır. |
| FTN 2 Müxtəlif liderlik üslublarını təşkilati mühitə uyğun tətbiq edir. |
| FTN 3 Komanda dinamikası və qrup davranışı proseslərini təhlil edir. |
| FTN 4 Emosional intellekt və motivasiya amillərini idarəetmə prosesində tətbiq edir. |
| FTN 5 Münaqişələrin həlli və qərarvermə proseslərində effektiv liderlik bacarığı nümayiş etdirir. |
| FTN 6 Təşkilati mədəniyyət və dəyişikliklərin idarə edilməsində strateji lider kimi çıxış edir. |

| Biznes statistikası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Statistik məlumatların növlərini və təhlil üsullarını izah edir. |
| FTN 2 Məlumat toplama, qruplaşdırma və təsviri statistika üsullarını tətbiq edir. |
| FTN 3 İnam intervalları, hipoteza testi və korrelyasiya analizi aparır. |
| FTN 4 Regresiya və dispersiya analizindən istifadə edərək iqtisadi əlaqələri modelləşdirir. |
| FTN 5 MS Excel, SPSS və digər proqramlarda statistik hesablama aparır. |
| FTN 6 Statistikanın nəticələrinə əsasən idarəetmə qərarları üçün analitik əsas yaradır. |

| Menecment iqtisadiyyatı fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Mikro və makroiqtisadi prinsiplərin idarəetmə qərarlarına təsirini izah edir. |
| FTN 2 Tələb və təklif modellərindən istifadə edərək bazar tarazlığını təhlil edir. |
| FTN 3 Xərclər, gəlir və mənfəət göstəriciləri əsasında optimallaşdırma qərarları qəbul edir. |
| FTN 4 Qiymətqoyma və istehsal qərarlarını iqtisadi modellərlə əsaslandırır. |
| FTN 5 Qərarvermədə elastiklik, marjinal analiz və oyun nəzəriyyəsindən istifadə edir. |
| FTN 6 İdarəetmə iqtisadiyyatı vasitəsilə resurs bölgüsündə səmərəlilik və dayanıqlığı təmin edir. |

| Maliyyə uçotu (F3) fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Maliyyə uçotunun əsas anlayışlarını və prinsiplərini izah edir. |
| FTN 2 Müəssisənin maliyyə əməliyyatlarını qeyd edir və maliyyə hesabatlarını tərtib edir. |
| FTN 3 Aktiv, passiv və kapital hesablarının uçotunu aparır. |
| FTN 4 Maliyyə nəticələrini təhlil edir və qərarvermədə istifadə edir. |
| FTN 5 Beynəlxalq Maliyyə Hesabatı Standartlarının (IFRS) tələblərini tətbiq edir. |
| FTN 6 Uçot məlumatları əsasında idarəetmə qərarlarının maliyyə əsaslandırılmasını həyata keçirir. |

| İstehlakçıların davranışı və modelləşdirilməsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 İstehlakçı davranışını formalaşdıran psixoloji, sosial və mədəni amilləri izah edir. |
| FTN 2 İstehlakçı qərarvermə prosesinin mərhələlərini modelləşdirir. |
| FTN 3 Bazar seqmentasiyası və hədəf bazar seçimi zamanı davranış modellərindən istifadə edir. |
| FTN 4 Rəqəmsal mühitdə istehlakçı davranışındakı dəyişiklikləri təhlil edir. |
| FTN 5 Empirik məlumatlar əsasında istehlakçı davranışını proqnozlaşdırır. |
| FTN 6 Marketinq strategiyalarının istehlakçı davranışına təsirini qiymətləndirir. |

| Marketinq strategiyası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Marketinq strategiyasının məqsəd, mərhələ və komponentlərini izah edir. |
| FTN 2 Rəqabət mühiti və bazar analizləri əsasında strateji qərarlar qəbul edir. |
| FTN 3 Rəqəmsal və beynəlxalq marketinq strategiyalarını müqayisəli şəkildə təhlil edir. |
| FTN 4 SWOT, BCG və Ansoff modellərindən istifadə edərək strateji planlar hazırlayır. |
| FTN 5 Müştəri yönümlü marketinq strategiyalarının tətbiqini həyata keçirir. |
| FTN 6 Şirkət məqsədləri və bazar meylləri əsasında dayanıqlı marketinq strategiyası formalaşdırır. |

| Marketinq tədqiqatları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Marketinq tədqiqatının məqsəd və mərhələlərini izah edir. |
| FTN 2 Sorğu, müşahidə və eksperiment kimi əsas tədqiqat metodlarını fərqləndirir. |
| FTN 3 Məlumat toplama və emal alətlərindən istifadə edir. |
| FTN 4 Tədqiqat nəticələrini analiz edir və qərarvermə prosesində tətbiq edir. |
| FTN 5 Marketinq tədqiqatlarında etibarlılıq və obyektivlik prinsiplərinə əməl edir. |

| |
|---|
| FTN 6 Analitik nəticələrə əsaslanaraq bazar proqnozları və strategiyalar hazırlayır. |

| **Davranış iqtisadiyyatı fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İqtisadi qərarvermədə psixoloji və davranış amillərinin rolunu izah edir. |
| FTN 2 İrrasional qərarvermə və seçim meyllərinin iqtisadi nəticələrini təhlil edir. |
| FTN 3 Heuristikalar, itki qorxusu və çərçivələmə effektlərini modelləşdirir. |
| FTN 4 Davranış iqtisadiyyatı nəzəriyyələrini (Kahneman, Thaler və s.) müqayisə edir. |
| FTN 5 İstehlakçı və investor davranışlarını proqnozlaşdırmaq üçün empirik yanaşmalardan istifadə edir. |
| FTN 6 İqtisadi siyasət və biznes qərarlarında davranış faktorlarının inteqrasiyasını təmin edir. |

| **Məhsul portfelinin idarə edilməsi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Məhsul portfelinin anlayışını və əhəmiyyətini izah edir. |
| FTN 2 Məhsulun həyat dövrü və bazar mövqeləri əsasında portfel analizini aparır. |
| FTN 3 BCG və GE matrislərindən istifadə edərək məhsul strategiyalarını formalaşdırır. |
| FTN 4 Yeni məhsul inkişafı və innovasiya proseslərini idarə edir. |
| FTN 5 Məhsul portfeli üzrə resurs bölgüsü və prioritetləşdirmə bacarığı nümayiş etdirir. |
| FTN 6 Portfelin gəlirlilik, bazar payı və risk göstəricilərinə əsasən optimallaşdırılmasını təmin edir. |

**Əlavə 2**

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisaslaşmanın təhsil proqramının təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyənləşdirməlidir.

| **Tədris fəaliyyətinin (fənnin) adı** | **Proqramın təlim nəticələri** | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **PTN 1** | **PTN 2** | **PTN 3** | **PTN 4** | **PTN 5** | **PTN 6** | **PTN 7** | **PTN 8** | **PTN 9** |
| Tədqiqat metodları | | + | | | | + | | | |
| Akademik yazı və etika | | + | | | | | | | + |
| Tədqiqat analitikası | | + | + | | | + | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Liderlik və təşkilati davranış | | + | | | | | | + | + |
| Biznes statistikası | | + | | + | | | | | |
| Menecment iqtisadiyyatı | | + | | | | + | | | |
| Maliyyə uçotu (F3) | | + | | | + | | | | |
| İstehlakçıların davranışı və modelləşdirilməsi | | | | + | | | | | |
| Marketinq strategiyası | + | | + | | | | | | |
| Marketinq tədqiqatları | | + | + | + | | | | | |
| Davranış iqtisadiyyatı | | + | | + | | | + | | |
| Məhsul portfelinin idarə edilməsi | | | | | + | + | | | |
| Elmi-pedaqoji təcrübə | | + | | | | | | + | + |
| Elmi tədqiqat təcrübəsi | | + | + | + | | | | | |
| Magistrlik dissertasiyası | + | + | + | + | + | + | + | + | + |

**Razılaşdırıldı:**

**Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru**

**__________________dosent Quliyeva Nüşabə**

**Tədris şöbəsinin müdiri**

**______________f-r.ü.f.d. Ağamalıyeva Leyla**

**İqtisadiyyat və idarəetmə kafedrasının müdiri**

**__________________Qocayev Tural**